

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

*Qəzet 1921-ci ildən çıxır*

Sayı: 19 (20.920)

*31 yanvar 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir



Yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf naziri Famil Seyidov, Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Bəxtiyar İsmayılov çıxış etmişlər.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Əhməd Əhmədov, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Xalid İsgəndərov, Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Valeh Vəliyev, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov, Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmov, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov müzakirə olunan məsələ ilə əlaqədar məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: “2013-cü ildə sosial-iqtisadi sahədə bir sıra nailiyyətlər əldə olunmuşdur. Görülmüş işlər sübut edir ki, Heydər Əliyev yoluna, onun ideyalarına sədaqət sabitliyin və firavan həyatın təmin olunmasının başlıca meyarıdır. Lakin əldə edilənlər heç də son nəticələr deyil. Bundan da yaxşı işləmək, bundan da yüksək nailiyyətlərə çatmaq məqsədilə müvafiq qurumlar öz fəaliyyətlərini dərindən təhlil etməli, yol verilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün səylərini daha da artırmalıdırlar”.

Ali Məclisin Sədri ötən il işdə buraxılmış nöqsanlara toxunaraq demişdir: “Muxtar respublikada sənayeləşmənin həcmi ildən-ilə artır. Hər il yeni istehsal müəssisələri fəaliyyətə başlayır. Bu müəssisələrin daha çox muxtar respublikanın paytaxtında yaradılması rayonların sənaye potensialının inkişafına və məşğulluğun rayonlar üzrə səmərəli planlaşdırılmasına mənfi təsir göstərir. Yerlərdə məskunlaşma və məşğulluq səviyyəsinin yüksəldilməsinə mühüm təsir göstərən amil kimi tarixən formalaşmış təsərrüfatçılıq ənənələrinə əsaslanan sahibkarlıq subyektlərinin yaradılmasına lazımi diqqət yetirilmir. Digər tərəfdən, perspektiv imkanların düzgün qiymətləndirilməməsi, yaxud istehsal edilən məhsulların keyfiyyət göstəricilərinin müvafiq standartlardan geri qalması həmin müəssisələrin bəzilərinin öz fəaliyyətlərini dayandırmasına, bir çox hallarda isə verilmiş kreditlərin vaxtında qaytarılmamasına səbəb olur. Bu isə bir daha göstərir ki, kreditlər verilərkən biznes-planların hazırlanmasında, təhlilində və qiymətləndirilməsində müəyyən səhvlərə yol verilir”.

“İstehsal müəssisələri o vaxt inkişaf edib böyüyə bilər ki, onların istehsal etdikləri məhsulların satış həcmi və satış şəbəkələri də böyüsün”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, vəzifə təkcə daxili bazarın yox, həm də xarici bazarın tələbatlarının ödənilməsindən ibarətdir. Muxtar respublikada isə istehsal edilən bəzi məhsulların lazımi səviyyədə tanıdılmaması nəticəsində məhsulların xarici bazarlara çıxarılmasında çətinliklər vardır. Muxtar respublikanın iqtisadi tərəqqisi əhali gəlirlərinin də həcminin artmasına imkan yaradır. Gəlirlərin inflyasiya təsirindən qorunması, bazarda pul kütləsinin artmasının qarşısının alınması məqsədilə alğı-satqı əməliyyatlarının nağdsız hesablaşmalar vasitəsilə aparılması mühüm əhəmiyyət kəsb edir. Bu gün əhalinin əksər hissəsinin əməkhaqqı və pensiyalarını plastik kartlar vasitəsilə almasına baxmayaraq, hələ də ticarət müəssisələrində quraşdırılan POS-terminallardan istifadə qənaətbəxş deyildir. Yenə də nağd yolla hesablaşmalara üstünlük verilir ki, bu da nağdsız ödənişlərin həcminin artırılması ilə bağlı verilmiş tapşırıqların, eləcə də “Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı”nda qarşıya qoyulmuş vəzifələrin icrasına aidiyyəti orqanlar tərəfindən lazımi diqqət yetirilmədiyini göstərir.

Ali Məclisin Sədri demişdir: “Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində ən müasir tələblərə cavab verən sosial və inzibati obyektlər tikilir, yollar çəkilir, körpülər salınır. Bir çox hallarda əlavə iş almaq xatirinə tikinti təşkilatları tələskənliyə yol verir, keyfiyyət amilinə yetərincə diqqət yetirmirlər. Bu səbəbdən istifadəyə verildikdən sonra tikililərdə təmirə ehtiyac yaranır. Bununla bağlı son vaxtlar muxtar respublikanın qəsəbə və kəndlərində aparılmış reydlər zamanı xeyli sayda faktlar aşkar olunmuşdur. Qeyd olunan nöqsanlar bir daha göstərir ki, tikintidə keyfiyyətə lazımi nəzarət yoxdur. Kənd təsərrüfatının potensialından tam şəkildə istifadə olunmur. Torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması, əkin zamanı mütərəqqi üsulların tətbiqi, mövcud texnika parkından səmərəli istifadə sahəsində hələ də bir sıra nöqsanlar mövcuddur. Bütün bunlar isə məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Məhsuldarlığa mənfi təsir göstərən digər amil isə şoranlaşma və eroziyaya qarşı mübarizə tədbirlərinin davamlı xarakter almaması, suvarma zamanı mütərəqqi metodlardan istifadənin zəif təşkil olunmasıdır”.

Qeyd olunmuşdur ki, muxtar respublikanın şəhər və rayonlarında aparılan yoxlamalar yerlərdəki digər çatışmazlıqları da üzə çıxarmışdır. Xüsusilə təmizliyə fikir verilməməsi, məişət tullantılarının selov və dərə keçidlərinə atılması, onların vaxtlı-vaxtında daşınmaması antisanitariya vəziyyətinin yaranmasına səbəb olur. Yerlərdə kommunal xidmətlərin keyfiyyətli təşkilinə lazımi nəzarət olunmur. Bir çox hallarda elektrik xətləri primitiv qaydada çəkilir ki, bu da qəza hallarının baş verməsinə və elektrik enerjisi itkisinə səbəb olur.

Ötən il təhsil sahəsində aparılan yoxlamalar göstərdi ki, bu sahədə nöqsanlar hələ də qalmaqdadır. Belə ki, dərslərin tədrisində əyani vəsaitlərdən istifadə səviyyəsi aşağıdır, bədən tərbiyəsi dərsləri lazımi səviyyədə təşkil edilmir, müəllimlərin informasiya-kommunikasiya texnologiyalarından istifadələri qənaətbəxş deyildir. Məktəblərdə hər 13 şagirdə 1 kompüter düşməsinə baxmayaraq, onların kompüterlərdən istifadə etmələri və internet şəbəkəsi üzərindən müəyyən dərslərin keçilməsi təmin edilmir, məşğələ və dərnəklər bir sıra hallarda formal xarakter daşıyır, kompüterlərin, açıq və qapalı idman qurğularının, hətta binaların saxlanılması səviyyəsi aşağıdır. Təhsil müəssisələrində məktəblilərin sağlamlığı üçün zərərli olan, həmçinin uyğunluq sertifikatı olmayan ərzaq məhsullarının satılması, bu məhsulların sanitar tələblərə cavab verməyən şəraitdə saxlanılması halları da mövcud olmuşdur. Ali və orta ixtisas təhsili məktəblərində müəllimlərin dərslərə hazırlıq səviyyəsinin aşağı olması, dərs prosesində informasiya-kommunikasiya texnologiyalarından lazımi qaydada istifadə edilməməsi, dərslərdə əyaniliyin təmin olunmaması, təcrübi məşğələlərin formal xarakter daşıması kadr hazırlığına mənfi təsir göstərir.

Ali Məclisin Sədri diqqətə çatdırmışdır ki, səhiyyə xidmətinin səviyyəsinin yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlərin həcminin artmasına, yeni səhiyyə ocaqlarının istifadəyə verilməsinə baxmayaraq, bu sahədə də nöqsanlar mövcuddur. Aparılan yoxlamalar zamanı yerlərdə bir çox tibb müəssisələrinin qapısının bağlı olması və onların dərmanla təchizatında problemlər aşkar edilmişdir. Kadr çatışmazlığı, tibbi heyətin biliyinin zəif olması quraşdırılan müasir avadanlıqlardan səmərəli istifadə əmsalını aşağı salır. Mədəniyyət müəssisələri də öz işini günün tələbləri səviyyəsində qura bilmirlər. Bir çox mədəni-maarif müəssisələrində iş intizamı aşağı səviyyədədir, əksər hallarda tədbirlər planı formal xarakter daşıyır, yaxud da onların icrasına lazımi nəzarət olunmur.

Ali Məclisin Sədri demişdir: “İşəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulması hallarına yenə də rast gəlinir. Sağlamlıq imkanları məhdud şəxslərin istedadlarının üzə çıxarılması, onların cəmiyyətə inteqrasiyası, intellektual səviyyələrinin inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün bir sıra tədbirlər həyata keçirilsə də, bunlar sistemli xarakter daşımamışdır. Sığorta fəaliyyətinin təşkili sahəsində müvafiq işlərin görülməsinə baxmayaraq, onun mahiyyəti və təbliği ilə əlaqədar izahat və reklam xarakterli tədbirlərin ardıcıllığı təmin olunmur. İcbari sığorta haqlarının, xüsusilə daşınmaz əmlakın icbari sığortası ilə bağlı haqların toplanmasında, sığorta ödənişlərinin həyata keçirilməsində problemlər mövcuddur. Sığortaolunanların hüquq və vəzifələri lazımi qaydada izah olunmur. Çox təəssüf ki, hələ də məcburi dövlət sosial sığorta haqlarından yayınma halları vardır. Bu isə onu deməyə əsas verir ki, həmin kateqoriyadan olan şəxslərin sosial sığorta və pensiya hüquqlarının qorunması məqsədilə aparılan təbliğat və maarifləndirmə işləri yetərli deyildir. İstər rayon mərkəzlərində, istərsə də qəsəbə və kəndlərdə əmək intizamı aşağı səviyyədədir. Bunu yoxlamalar zamanı bir çox işçilərin üzrsüz səbəbdən işdə olmaması, yaxud hərəkət jurnallarında müvafiq qeydlərin vaxtlı-vaxtında aparılmaması kimi faktların aşkarlanması da təsdiq edir. Yeni tikililərin saxlanma şəraiti qənaətbəxş deyil, bir çox hallarda buna lazımi diqqət göstərilmir”.

Qeyd olunmuşdur ki, muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və “Elektron hökumət”in formalaşması istiqamətində xeyli işlər görülmüşdür. Lakin dövlət orqanları, idarə və müəssisələr onlar üçün yaradılan imkanlardan düzgün istifadə etmir, elektron ünvanlarının işlək vəziyyətdə olmasını diqqətdə saxlamırlar. Bu sahədə fəaliyyət göstərən mütəxəssislərin bilik səviyyəsi də aşağıdır. Nəticədə isə muxtar respublika əhəmiyyətli internet saytlarında məlumatlar yenilənmir, elektron sənəd dövriyyəsi zəif təşkil olunur. Dövlət qulluğunun idarə olunması sahəsində də nöqsanlar qalmaqdadır. Əvvəllər də müvafiq tapşırıqlar verilməsinə baxmayaraq, dövlət orqanlarının kadr qurumları ilə iş zəifdir, dövlət qulluqçularının reyestri tam formalaşdırılmamış, test bankları zənginləşdirilməmişdir. Muxtar respublikanın kütləvi informasiya orqanları üçün yaradılan hərtərəfli şəraitə baxmayaraq, işdə müəyyən nöqsanlara yol verilir. Teleradio və qəzetlərdə materiallar hazırlanarkən faktlar ciddi araşdırılmır, qeyri-obyektiv yanaşma halları müşahidə olunur. Teleradiolarda bədii şuraların yaradılmasına baxmayaraq, onların fəaliyyəti hiss edilmir. “Şərq qapısı”, şəhər və rayon qəzetlərində aktual mövzularda, publisistika janrında oxunaqlı yazılar az hazırlanır.

Ali Məclisin Sədri aid orqanlara konkret tapşırıqlar verərək demişdir: “Qeyd olunan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün mərkəzi və yerli icra hakimiyyəti orqanları işdə dönüş yaratmalı, 2014-cü ildə öz fəaliyyətlərini daha da gücləndirməlidirlər. Muxtar respublika iqtisadiyyatının müxtəlif sahələri üçün ayrılmış maliyyə vəsaitlərinin həcminin ildən-ilə artması nəzərə alınaraq Maliyyə Nazirliyi bu vəsaitlərdən təyinatına uyğun və səmərəli şəkildə istifadəyə nəzarəti gücləndirməli, alınan bütün növ mal-materialların keyfiyyətini və qiymətini diqqət mərkəzində saxlamalıdır. Vergilər Nazirliyi və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi həyata keçirilən maliyyə əməliyyatlarının nağdsız hesablaşmalar vasitəsilə aparılmasına və açılmış bank hesablarının fəaliyyət göstərmələrinə nəzarəti artırmalıdırlar”.

*Ardı 2-ci səhifədə*

"Nağdsız ödənişlərin həcmi əhəmiyyətli şəkildə artırılmalıdır", – deyən Ali Məclisin Sədri tapşırmışdır ki, POS-terminallardan səmərəli istifadəni təmin etmək məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Vergilər Nazirliyi fəaliyyətlərinin nəticəli olmasına çalışmalıdırlar. Xidmət və ticarət obyektlərinin böyük əksəriyyətində POS-terminalların quraşdırılması işi qısa müddətdə başa çatdırılmalı, əhalinin bu xidmətdən istifadə etməsi üçün müxtəlif həvəsləndirici təkliflər təqdim olunmalıdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və təşkilatların rəhbərləri də öz işçilərinin alğı-satqı əməliyyatları zamanı POS-terminallardan istifadəyə üstünlük verməleri ilə bağlı tədbirləri gücləndirməlidirlər. Dövlət Energetika Agentliyi, "Naxçıvanqaz" İstehsalat Birliyi və yerli icra hakimiyyəti orqanları Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birlikdə elektrik enerjisi, qaz, rabitə və digər kommunal xidmət haqlarının poçt şöbələri və ya burada quraşdırılan POS-terminallar vasitəsi ilə ödənilməsi üçün müvafiq işləri qısa müddətdə başa çatdırmalıdırlar.

Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi qarşısında da konkret vəzifələr qoyulmuşdur. İqtisadi İnkişaf Nazirliyi yerli xammaldan istifadəyə əsaslanan və satış bazarı olan yeni istehsal müəssisələrinin yaradılmasını bundan sonra da diqqət mərkəzində saxlamalı, ixracyönümlü məhsul istehsalını artırmaq, keyfiyyətli məhsul istehsalını təmin etmək üçün müasir texnologiyaya malik təkliflərə daha çox üstünlük verməlidir. Nazirlik sənaye parklarının yaradılması istiqamətində işləri sürətləndirməli, sənaye müəssisələri yaradılarkən muxtar respublikanın bütün rayonlarının mövcud imkanları nəzərə alınmalıdır. Kəndlərdə məskunlaşmaya və məşğulluq səviyyəsinin yüksəldilməsinə xidmət edən xalq tətbiqi sənətinin müxtəlif sahələrinin, yaxud yerli təsərrüfatçılıq ənənələrinə əsaslanan kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmalıdır. Sahibkarlığa Kömək Fondunun xətti ilə müxtəlif sahibkarlıq subyektlərinə kreditlər verilərkən tərtib olunmuş biznes-planlar ciddi təhlil olunmalı, ayrılmış maliyyə vəsaitlərindən səmərəli istifadəyə və onların vaxtında qaytarılmasına nəzarət gücləndirilməlidir. Daxili bazarda süni qiymət artımının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlərin təsirliliyi artırılmalıdır. İqtisadi İnkişaf Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə qiymət artımına yol verməmək, istehsal olunmuş məhsulların birbaşa istehsalçılar tərəfindən satışını təmin etmək məqsədilə yarmarkaların təşkilini 2014-cü ildə də davam etdirməlidir. Sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi və özəl sektorun inkişafını təmin etmək məqsədilə bank və kredit təşkilatları tərəfindən verilən kreditlərin coğrafiyası tələbata uyğun genişləndirilməli, onların çoxsahəli və səmərəli olması təmin edilməli, kreditlər verilərkən daha münasib faiz dərəcələrinin tətbiqi diqqət mərkəzində saxlanılmalıdır.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi istehsal olunmuş məhsulların keyfiyyətinin yoxlanılması, digər patentləşdirilmiş əmtəə nişanı adı altında bazarlara keyfiyyətsiz məhsul çıxarılmasının qarşısının alınması istiqamətində tədbirləri gücləndirməlidir. Yerli istehsalın qorunması, həmçinin istehlak bazarının keyfiyyətli məhsullarla təchiz olunması üçün Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatlarının mövsümə uyğun olaraq tənzimlənməsini bundan sonra da davam etdirməli, sərhəd-buraxılış məntəqələrində sanitariya və karantin mühafizəsi üçün tədbirlərin müasir tələblər səviyyəsində təşkilini diqqət mərkəzində saxlamalı, gömrük ödənişlərinin bank, plastik kart və ya elektron qaydada ödənilməsini təmin etməlidir.

Ali Məclisin Sədri Kənd Təsərrüfatı Nazirliyinə tapşırıqlar verərək demişdir: "Nazirlik aidiyyəti qurumlarla birgə kənd təsərrüfatında intensiv əkin və suvarma metodlarının tətbiqinə nail olmalı, yerlərdə sahibkarlarla görüşlər keçirməlidir. Torpağın münbitliyini artırmaq və yüksək məhsuldarlıq əldə etmək məqsədilə əkin zamanı torpaq altına qidalandırıcı gübrələrin verilməsi təmin olunmalı, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lazımi gübrə ehtiyatı yaradılmalıdır. Bitkiçilik məhsullarının rayonlar üzrə yerli şəraitə uyğun əkilməsi, növbəli əkin sisteminin tətbiqi və torpaqların münbitliyinin artırılması ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyi Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə yerlərdə mütəmadi olaraq maarifləndirici tədbirlərin həyata keçirilməsini təşkil etməlidirlər. Nazirlik əkinçilikdə məhsuldarlığı artırmaq məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə yeni məhsuldar sortların sınaqdan keçirilməsinə və rayonlaşdırılmasına xüsusi diqqət yetirməlidir. Əkin sahələrində məhsuldarlığın aşağı düşməsinə səbəb olan ziyanverici və xəstəliklərə qarşı mübarizə tədbirləri gücləndirilməlidir. Əhalinin il boyu mövsümi meyvə-tərəvəz məhsulları ilə təminatını yaxşılaşdırmaq məqsədilə İqtisadi İnkişaf Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə mövsüm ərzində tələbatdan artıq məhsulun anbarlar tərəfindən alınması üçün öz səylərini artırmalıdır. Eyni zamanda istixana komplekslərinin fəaliyyətinin genişləndirilməsi üçün də müvafiq tədbirlər görülməlidir".

Müşavirədə tapşırılmışdır ki, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi torpaqların şoranlaşmasının qarşısının alınması məqsədilə meliorativ tədbirləri davam etdirsin və yerli icra hakimiyyəti orqanları ilə birlikdə suvarma suyundan səmərəli istifadəni daim nəzarətdə saxlasın. Yeraltı su mənbələri olan kəhrizlərin bərpası, suvarma sistemlərinin təkmilləşdirilməsi davam etdirilməlidir. Əhalinin keyfiyyətli qida məhsullarına olan tələbatının ödənilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyi İqtisadi İnkişaf Nazirliyi, Dövlət Baytarlıq Xidməti və "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə cins heyvandarlıq komplekslərinin yaradılması və inkişaf etdirilməsinə xüsusi diqqət yetirməlidir. Dövlət Baytarlıq Xidməti və onun yerli orqanları profilaktik tədbirləri gücləndirməli, heyvanlar arasında xəstəliklərin qarşısının alınması, onların cins tərkibinin yaxşılaşdırılması üçün əlavə tədbirlər görməlidir.

"Muxtar respublikada torpaq mülkiyyətçilərinin texnika ilə təchizatındakı problemləri aradan qaldırmaq məqsədilə bütün rayon mərkəzlərində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin filialları yaradılmışdır. Hər il bu cəmiyyətin xətti ilə müxtəliftəyinatlı kənd təsərrüfatı texnikaları gətirilərək lizinq yolu ilə satışı həyata keçirilir", – deyən Ali Məclisin Sədri qeyd etmişdir ki, yerli icra hakimiyyəti orqanları müvafiq qurumlarla birlikdə lizinqə verilmiş və ya qrant hesabına alınaraq satışı həyata keçirilən kənd təsərrüfatı texnikalarının imkanlarından səmərəli istifadəni və onların dəyərinin vaxtında ödənilməsini təmin etməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi kənd təsərrüfatı üçün yararsız torpaq sahələrində meşə və qoruyucu meşə zolaqlarının salınmasını davam etdirməli, mövcud meşə fondunun qorunması və bərpası ilə bağlı tədbirləri daha da gücləndirməlidir.

Ali Məclisin Sədri demişdir: "Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ayrılan maliyyə vəsaitindən səmərəli istifadəni təmin etməli, tikinti-abadlıq işləri keyfiyyətlə aparılmalıdır. Tikinti təşkilatlarının, xüsusilə su, kanalizasiya, yol, elektrik, qaz və rabitə xətlərinin çəkilişi ilə məşğul olan təşkilatların fəaliyyətində əlaqələndirmə və ardıcıllıq təmin edilməli, inşaat işlərinin yerinə yetirilməsində yerli istehsal məhsullarına üstünlük verilməli, tikinti və dizayn işlərində milli ornamentlər daha geniş miqyasda tətbiq olunmalıdır".

Müşavirədə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Nəqliyyat Nazirliyi, Dövlət Energetika Agentliyi, "Naxçıvanqaz" İstehsalat Birliyi və Dövlət Baş Sığorta Agentliyi üçün də konkret tapşırıqlar verilmişdir. Qeyd olunmuşdur ki, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi muxtar respublikada telekommunikasiya və poçt xidmətlərinin, rəqəmsal televiziya yayımının, eləcə də simsiz internetin əhatə dairəsinin genişləndirilməsi və aidiyyəti təşkilatlarla birlikdə "Elektron hökumət"in yaradılması istiqamətində fəaliyyətini daha da artırmalı, "Naxtel" telefon şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi və yeni xidmətlərin göstərilməsi məqsədilə texnoloji avadanlıqların quraşdırılmasını başa çatdırmalıdır. Nəqliyyat Nazirliyi bütün nəqliyyat növləri üzrə xidmətin yüksəldilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi istiqamətində səylərini artırmalıdır. Dövlət Energetika Agentliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi yerli icra hakimiyyəti orqanları ilə birlikdə yeni tikilmiş mənzillərə elektrik və qaz xətlərinin çəkilişini operativ həll etməli, enerji daşıyıcılarından qanunsuz istifadəyə qarşı mübarizə tədbirlərini gücləndirməli, elektrik və qaz xətlərinin dayanıqlılığının təmin edilməsi istiqamətində işləri davam etdirməli, Naxçıvan şəhərində "Smart-kart" tipli elektrik və qaz sayğaclarının quraşdırılmasına başlanılmalıdır. Dövlət Baş Sığorta Agentliyi sığorta fəaliyyətinin canlandırılması, əhalinin sığortaya olan etibarının artırılması üçün təsirli tədbirlər görməlidir.

Təhsilin və elmin inkişafına xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayan Ali Məclisin Sədri tapşırmışdır ki, Təhsil Nazirliyi təhsil müəssisələrində tədrisin keyfiyyətinə nəzarəti gücləndirməli, dərslərin tədrisində əyaniliyi təmin etməlidir. İnformasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəni təmin etmək məqsədilə müəllimlərlə sistemli iş aparılmalı, onların hazırlıq səviyyəsinin artırılması nəzarətə götürülməli, sanitariya-gigiyena normalarına əməl olunmasına nəzarət artırılmalıdır. Ali təhsil müəssisələri müəllim və tələbə mübadiləsi, digər ölkələrdən müəllimlərin dəvət olunması və ya distant təhsilin təşkili istiqamətində fəaliyyəti gücləndirməli, ixtisaslı kadr hazırlığına və müvafiq ixtisaslar üzrə tədris və tədris-metodik ədəbiyyatların hazırlanmasına nail olmalıdırlar. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi 2014-cü ildə "Naxçıvan tarixi" çoxcildliyinin ikinci cildinin nəşrə verilməsini təmin etməli, aparılan elmi tədqiqatların səmərəliliyinə və onların istehsalatda tətbiqinə diqqəti artırmalıdır.

Ali Məclisin Sədri qeyd etmişdir ki, Səhiyyə Nazirliyi müasir avadanlıqlardan səmərəli istifadəni təmin etmək məqsədilə tibbi heyətin ixtisasartırma kurslarına göndərilməsini davam etdirməlidir. İctimai-iaşə obyektlərində və satış məntəqələrində sanitar-gigiyena qaydalarına əməl olunmalı, kənd və qəsəbələrdəki tibb məntəqələrinin dərman preparatları ilə vaxtlı-vaxtında təchiz olunması diqqət mərkəzində saxlanılmalıdır.

Mədəniyyət və Turizm Nazirliyinə tapşırılmışdır ki, tabeliyində olan müəssisə və təşkilatlarda əmək intizamını gücləndirsin, mədəniyyət müəssisələrinin, klub və kitabxanaların fəaliyyətində ciddi dönüş yaratsın. Kitabxana işi günün tələbləri səviyyəsində təşkil olunmalı, kitabxanalarda mövcud kitabların elektron kataloqlarının yaradılması davam etdirilməli, muxtar respublikanın turizm potensialından səmərəli istifadə istiqamətində əməli tədbirlər görülməlidir. Muzeylərdə mövcud eksponatların inventarizasiyası aparılmalı, eksponatlar barədə məlumatların Azərbaycan dili ilə yanaşı, xarici dillərdə də yazılması təmin edilməlidir.

Gənclər və İdman Nazirliyi üçün də konkret vəzifələr müəyyənləşdirilmiş və qeyd olunmuşdur ki, nazirlik 2015-ci ildə Azərbaycanda keçiriləcək birinci Avropa Oyunlarında muxtar respublika idmançılarının iştirakı üçün ciddi hazırlıq işləri görməli, idman qurğu və obyektlərindən, eyni zamanda olimpiya-idman komplekslərindən səmərəli istifadəyə və onların qorunub saxlanılmasına diqqəti artırmalı, idmanın kütləviliyini təmin etməlidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ünvanlı dövlət sosial yardımının təyinatında, əlillik dərəcələrinin verilməsində qanunvericiliyin tələblərini təmin etməli, sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsi və reabilitasiyası, eləcə də onların cəmiyyətə inteqrasiyası sahəsində müvafiq tədbirlər görməlidir. İşəgötürənlər tərəfindən əmək qanunvericiliyinə əməl edilməsinə nəzarət artırılmalı, peşə hazırlığı əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılmalı, işaxtaranların, xüsusən də sosial müdafiəyə ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsi sahəsində fəaliyyət gücləndirilməlidir. 2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi və əhali məşğulluğunun artırılması üzrə dövlət proqramlarında nəzərdə tutulan tapşırıqların icrası vaxtında başa çatdırılmalıdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların fiziki və əqli inkişafını, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən tədbirlər görməlidir. Ailə, qadın və uşaqlarla bağlı məlumat bazasının yaradılması və ailə institutunun möhkəmləndirilməsi, qadınların sağlamlıqlarının qorunması istiqamətində maarifləndirici tədbirlər davam etdirilməlidir. Dövlət Sosial Müdafiə Fondu sığortaolunanların sığorta stajlarının fərdi şəxsi hesablarına işlənilməsini təmin etməli, məcburi dövlət sosial sığorta haqlarından yayınma hallarının aradan qaldırılması, sığorta haqlarının "onlayn ödəmə" sistemi vasitəsilə ödənilməsi sahəsində təbliğat və maarifləndirmə işlərini gücləndirməlidir.

Müşavirədə qeyd olunmuşdur ki, Ədliyyə Nazirliyi qeydiyyat və notariat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun aparılmasına diqqəti daha da artırmalı, bələdiyyələrlə işi və onlara metodik köməklik göstərilməsini nəzarətdə saxlamalıdır. Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət qulluqçularının məlumat bazasının yaradılmasını başa çatdırmalı, dövlət orqanlarının kadr qurumları ilə maarifləndirici seminarların keçirilməsini və dövlət qulluğu ilə bağlı normativ-hüquqi aktların tələblərinə riayət edilməsini təmin etməlidir.

Ali Məclisin Sədri muxtar respublikanın hüquq-mühafizə orqanları üçün konkret vəzifələr müəyyənləşdirərək demişdir: "Fövqəladə Hallar Nazirliyi mövsümə uyğun olaraq yanğın təhlükəsizliyi tədbirlərini davam etdirməli, yüksək təhlükə potensiallı obyektlərə dövri olaraq nəzarət edilməlidir. Hüquq-mühafizə orqanları maarifləndirmə, profilaktika tədbirlərini davam etdirməli, nizam-intizamı daha da möhkəmləndirməli, cəmiyyətdəki müxtəlif sosial qruplarla – sahibkarlar, dövlət qulluqçuları, qeyri-hökumət təşkilatlarının təsisçiləri ilə görüşlər keçirərək onlara hüquq və vəzifələrini izah etməlidirlər".

Ali Məclisin Sədri demişdir ki, kütləvi informasiya orqanları qədim diyarımızın ictimai-siyasi həyatında baş verən köklü dəyişikliklərin, irimiqyaslı quruculuq tədbirlərinin salnaməçisinə çevrilməli, jurnalistlər gənc nəsildə vətənpərvərlik hisslərini gücləndirməli, teleradiolarda ədəbi dil normaları qorunmalıdır. Yerli icra hakimiyyəti orqanları əkinəyararlı torpaq sahələrindən səmərəli istifadəni diqqət mərkəzində saxlamalı, kənd təsərrüfatı məhsullarının bazarlara çıxarılması üçün istehsalçılara müvafiq şəraitin yaradılmasını təmin etməlidirlər. Həmçinin yerlərdə abadlıq işlərinin keyfiyyətlə aparılmasına, salınmış yaşıllıqların mühafizəsinə, tullantıların vaxtlı-vaxtında daşınmasına, istifadəyə verilmiş sosial və inzibati obyektlərin normal fəaliyyəti ilə yanaşı, onların qorunmasına da xüsusi diqqət yetirilməli, müəssisə və təşkilatlarda nizam-intizam gücləndirilməlidir.

Ali Məclisin Sədri müşavirəyə yekun vuraraq demişdir: "2014-cü ildə muxtar respublikanın yaradılmasının 90 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il yanvarın 14-də "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam vermişdir. Sərəncamın icrasını təmin etmək və yubileyə öz layiqli töhfəsini vermək üçün bütün müəssisə və təşkilatlar səylərini səfərbər edərək daha səylə çalışmalı, daha yaxşı nəticələrin əldə olunmasına nail olmalıdırlar".

Ali Məclisin Sədri bu vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Heydər Əliyev Muzeyində növbəti açıq dərs

***Heydər Əliyev Muzeyində Naxçıvan şəhərindəki 8 nömrəli tam orta məktəb şagirdlərinin iştirakı ilə açıq dərs keçilmişdir. Açıq dərsdə üçrəngli bayrağımızın Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsində ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs olunmuşdur. Məktəbin müəllimi Gülü Hacıyeva bildirmişdir ki, həm türk dünyasında, həm də Şərq aləmində ilk cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə – 1918-ci il iyun ayının 24-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq, həmin il noyabrın 9-da isə üçrəngli bayraq dövlət bayrağı kimi qəbul olunmuşdur. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımız 70 il yalnız ürəklərdə yaşamışdır.***

Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qaldırılmışdır. Həmin sessiya Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olmuşdur. Məhz ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə həmin sessiyada “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” tarixi Qərar qəbul edilmişdir. Həmin qərara əsasən, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunmuşdur. Qərarda o da göstərilirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağının, bütövlükdə, Azərbaycanın dövlət rəmzi kimi təsis edilməsi Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin.

1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikasının Ali Soveti üçrəngli bayrağın Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etmişdir.

Qeyd olunmuşdur ki, xalqımızın böyük oğlu Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Dövlət bayrağı milli suverenliyin simvolu kimi təsdiq olunmuş, Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edilmişdir. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikasının Dövlət bayrağının istifadəsi qaydaları müəyyənləşdirilmişdir.

Bildirilmişdir ki, bu gün Azərbaycanda dövlət atributlarına hörmət və ehtiram yüksək səviyyədədir. Bu da ulu öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət rəmzlərinə olan münasibətindən qaynaqlanır, milli ideallara bağlılıq özünü həm də üçrəngli bayrağımıza münasibətdə qabarıq göstərir. Ölkə rəhbəri müstəqilliyimizin simvolu olan dövlət atributlarının əhəmiyyətini artırmaq, onların məna və mahiyyətini gənc nəslə aşılamaq məqsədilə həyata keçirilən bir çox layihələrin ideya müəllifidir. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 noyabr tarixli “Azərbaycan Respublikasının Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında” və 2009-cu il 17 noyabr tarixli “Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında” sərəncamları bunun parlaq nümunəsidir.

Sonra şagirdlər muzeyin ekspozisiyası, ümummilli lider Heydər Əliyevin öz əli ilə yazıb hazırladığı Ali Məclisin “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” tarixi Qərarı və o zaman qaldırılmış ilk üçrəngli bayraqla tanış olmuşlar.

# Əmək bazarının tələbatı müzakirə edilib

***Naxçıvan Biznes Mərkəzində “Əmək bazarında əcnəbi işçiyə olan tələbatın müəyyənləşdirilməsi” mövzusunda yığıncaq keçirilib. Yığıncaq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nda əks olunan və Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin üzərinə düşən vəzifələrin icrasına həsr olunub.***



Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin şöbə rəislərindən Əfqan Əliyevin, İlqar Seyidovun, İqtisadi İnkişaf Nazirliyinin şöbə müdiri Mircavad Tağızadənin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyevin çıxışları olub. Çıxışlarda əmək bazarında əcnəbilərin çalışdıqları sahələrin yerli əmək ehtiyatları hesabına ödənilməsinin təmin edilməsindən, istehsalat və xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması istiqamətlərindən, əmək ehtiyatlarından istifadə edilməsində Dövlət Məşğulluq Xidmətinin rolundan söhbət açılıb.

Muxtar respublikada fəaliyyət göstərən sahibkarların da iştirak etdiyi tədbirdə qeyd edilib ki, əmək bazarı cəmiyyətin sosial-siyasi və iqtisadi həyatının mühüm çoxcəhətli sahəsidir. Əmək bazarında işçi qüvvəsinin dəyəri, ondan istifadənin şərtləri müəyyənləşdirilir. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən uğurlu islahatlar nəticəsində davamlı miqrant axınının ölkəmizin milli maraqları çərçivəsində tənzimlənməsi və daxili əmək bazarının qanunsuz miqrantlardan qorunması təmin olunub. Bu gün qarşıda duran vəzifələrdən biri də əmək bazarında əcnəbilərin çalışdıqları sahələrin yerli əmək ehtiyatları hesabına ödənilməsinin təmin edilməsidir.

Bildirilib ki, bu gün muxtar respublikamız kifayət qədər əmək ehtiyatlarına malikdir. Belə bir şəraitdə miqrasiya proseslərinin muxtar respublikanın iqtisadi maraqları fonunda effektiv tənzimlənməsinin təmin edilməsi, bu sahədə məqsədyönlü siyasətin həyata keçirilməsi zəruridir. Mövcud vəziyyət nəzərə alınaraq yalnız yüksək ixtisaslı əcnəbi mütəxəssislərin cəlb olunmasına üstünlük verilməsi, yerli əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, yerli kadrların hazırlanması, zərurət olmadan xarici işçi qüvvəsinin cəlb olunmasının qarşısının alınması günün tələbidir. Bu prosesdə müvafiq dövlət qurumları ilə bərabər, sahibkarlar da maraqlı olmalıdırlar. Bundan əlavə, əmək bazarında əcnəbi işçiyə olan tələbatın müəyyənləşdirilməsinin də böyük əhəmiyyəti vardır. Bu tələbatın dəqiq müəyyənləşdirilməsi daxili əmək bazarının qorunmasına, vətəndaşların məşğulluğunun təmin olunmasına və xarici işçi qüvvəsindən səmərəli istifadəyə xidmət edir.

Sonra mövzu ətrafında müzakirələr aparılıb.

**Xəbərlər şöbəsi**

***İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, iqtisadi təhlükəsizliyə tam şəkildə nail olunması buradakı bütün iqtisadi resursları dövriyyəyə cəlb edə bilən və bununla da, onların səmərəli istifadəsinə şərait yaradan sənaye məhsulu istehsalından keçir. Hazırda iqtisadi inkişaf səviyyəsinə görə ilk sıralarda olan ölkələrin bir çoxu sənayeləşmə mərhələsini bu və ya digər yollarla keçməklə öz ixrac potensialını möhkəmləndirmiş, əl əməyini əvəz edən yeni, innovativ texnologiyaları inkişafı mənimsəmişdir. Azərbaycanın müasir iqtisadi potensialı və sahib olduğu bütün sərvətlər bunu deməyə əsas verir ki, ölkəmiz də öz imkanları hesabına bu vacib məsələnin həllinə nail ola bilər.***

*Sənaye və regional inkişaf*

# İnkişafın sənayeləşmə yolu







2014-cü il ölkəmizdə “Sənaye ili”dir. Azərbaycanda iqtisadi inkişafın artan tempi, əhalinin istehlak səviyyəsinin yüksəlməsi sənaye məhsulu istehsalını şərtləndirən amillərdəndir. Ölkəmizə idxal olunan məhsullar arasında yüksək texnologiyanın üstünlük təşkil etməsi də bu baxımdan diqqəti cəlb edir. Ona görə ki, yeni texnologiyaların istehsala tətbiqi ilə əldə olunan innovativ yeniliklər bizim ölkəmizdə də maraqla qarşılanır və insanlar bu yenilikləri öz həyatında dərhal tətbiq edib daha üstün keyfiyyət dəyişikliyinə keçmək istəyirlər. Burada isə qeyri-adi heç nə yoxdur. Azərbaycanlıların həyat tərzi, yüksək təhsil və mədəni səviyyəsi, gələcəyə baxışları dünyadakı bütün yeniliklərin dərhal qavranılmasına şərait yaradan əsas amillərdəndir. Ona görə də ölkəmizdə sənayeləşmə istiqamətində atılan addımları, sadəcə, yeni zavod və ya fabriklərin tikintisi planı xatirinə deyil, əhalinin artan mədəni tələbatlarının ödənilməsi üçün öz imkanlarımızın səfərbər olunması, xərclərimizi öz gəlirlərimizə çevirmək kimi strateji tədbirlər olaraq qiymətləndirmək lazımdır.

Sənaye regional inkişafda mühüm rol oynayır. Keçmiş totalitar dövrə məxsus mülahizələrin əksinə olaraq, sənaye müəssisələrinin regionlarda təşkili əhalinin məşğulluq problemlərinin həllindən əlavə, ucuz xammal ehtiyatlarından səmərəli istifadə olunmasına, iri şəhərlərdə yol-nəqliyyat problemlərinin yaranmamasına, ekoloji vəziyyətin böhran səviyyəsinə çatmadan nəzarətdə saxlanmasına şərait yaradır.

İnsan həyatı üçün lazım olan maddi nemətlərin sayı və çeşidi kifayət qədər çoxdur. Təkcə sənayenin yarımsahələri üzrə baxsaq, bu rəqəm minlərlə, on minlərlə ola bilər. Sənayedə isə yarımsahələr xeyli miqdardadır. Hazırda dünyada hasilat sənayesi, ağır və yüngül sənaye, geyim, dəri, kənd təsərrüfatı məhsulları emalı, elektrik və elektronika, metalərıtmə, avtomobil, şüşə və keramika, mərmər və tikinti materialları istehsalı, poliqrafiya, əczaçılıq, mebel və ağac emalı, turizm və film sənayesi və sair kimi onlarla sahələrdə çoxlu sayda çeşiddə məhsullar istehsal olunur. Təkcə neftin xammal kimi istifadəsi ilə kimya sənayesində insana lazım olan yüz minlərlə adda məhsul istehsalı mümkündür ki, bu da sənayenin sonsuz imkanlarını göstərən faktlardandır. Bunlardan başqa, sənayenin xüsusi sahələri olan kosmik və müdafiə sənayesi də öz təyinatına görə daha əhəmiyyətli strateji məqsədlərə xidmət edir.

Sənayenin inkişafı təkcə iqtisadi layihələrin həyata keçirilməsi ilə konkret məhsulların istehsalı demək deyildir. Sənaye kənd təsərrüfatı və xidmət sahələri ilə birlikdə cəmiyyətin ümumi inkişafını bir lokomotiv kimi ardınca apararaq bir çox sahələrin də maraqlarını təmin etmiş olur. Elm və təhsildə əldə olunmuş nəzəri nəticələrin maddiləşərək dəyər qazanması da məhz sənayenin inkişafı hesabınadır. Belə ki, sənaye elm-təhsil-sənaye zəncirində hərtərəfli tamamlayıcı funksiya yerinə yetirərək elm və təhsil müəssisələrinin potensialından lazımınca yararlanmaqda və öz növbəsində, onların da bazar iqtisadiyyatında yaradıcı rəqabətə qoşulmasında əsas sifarişverici rolu oynayır. Sənayenin inkişafı nəqliyyat, rabitə, turizm, sığorta kimi sahələrin də işinin canlanmasına, reklam işinin hərəkətə gəlməsinə şərait yaradır. Bəzən bir sənaye sahəsi haqqında danışarkən konkret olaraq orada işlə təmin olunmuş insanların məşğulluğu düşünülsə də, hardasa təşkil olunmuş bir istehsal müəssisəsinin gəlirləri həm də büdcə və digər bölgü mexanizmləri vasitəsilə müəllimin, həkimin, zabitin, jurnalistin əməkhaqqını, təqaüd, pensiya və müavinətləri ödəmək üçün də bir mənbədir. Başqa sözlə, sənaye real sektorun aparıcı sahəsi kimi maddi dəyərlər yaradan bir məşğuliyyət sahəsidir.

Göründüyü kimi, sənayenin inkişafı bir ölkənin iqtisadi təhlükəsizliyinin əsasıdır. Sənaye məhsulları istehsalı iqtisadi inkişafda mühüm rol oynayan kiçik və orta sahibkarlıq üçün geniş imkanlar sahəsidir. İnkişaf etmiş ölkələrdə minlərlə, hətta yüz minlərlə kiçik və orta sahibkar öz bacarığını müxtəlif sənaye istehsalı təşkil etməklə ortaya qoyur, iş yerləri açır, yeni texnologiya transfer etməklə ən yüksək ixtisaslaşma səviyyəsində rəqabətə qoşulur. Beləliklə, bu gün qlobal iqtisadiyyatda güc sahibinə çevrilmiş, şirkət kapitalı bəzi ölkələrin Ümumi Daxili Məhsulundan da çox olan tanınmış firmalar bir zamanlar məhz bir sənaye məhsulu istehsalı üzrə bazara daxil olmuş və bugünkü nəhənglərə çevrilmişlər. Sənayenin açdığı innovativ cığırlar isə o qədər çoxalmışdır ki, bu gün onları izləməyin özü belə, bir xidmət növü kimi sənayeçilərə təklif olunmaqdadır. Bu gün hazır məhsul kimi istifadə etdiyimiz son texnologiyalı məhsulların, əslində, insanlar tərəfindən deyil, yorulmaq bilməyən robotlar tərəfindən istehsal olunduğu, robotların isə sənaye nəhənglərinin iqtisadi gücünü göstərdiyi heç kəsə sirr deyil. Ona görə də sənayeləşmənin son həddi dedikdə bu gün daxili tələbatı ödəyən müəyyən həcmli məhsul istehsalı deyil, gedərək genişlənən uğurlu biznes layihələri ilə xarici bazarlara da çıxışı hədəfləyən istehsal imkanları nəzərdə tutulmalıdır. Ölkəni keyfiyyətli brend məhsullarla tanıtmağın yolu məhz belə sənaye sahələrindən keçir. Çünki indiyə qədər özünü dünyada xam nefti, dəmir filizi, pambıq lifi, meşə materialı ilə tanıdan ölkələr olmadığı üçün sənayeləşmiş ölkələr də belə xam maddələri ucuz qiymətə alıb yüz minlərlə adda məhsul istehsal edərək öz adı ilə yenidən onlara satır. Buna görə də sənayeləşməyə keçid həm də kimlərəsə xammal bazası olmaqdan çıxmaq, müstəqil iqtisadi layihələri həyata keçirmək yolunda mühüm mərhələdir.

Ölkəmizin regional inkişaf strategiyası müstəvisində sənaye istehsalına göstərilən diqqət hələ neçə illər öncəsindən Naxçıvan Muxtar Respublikasında da öz bəhrəsini verməyə başlamışdır. Məlum çətinliklərə baxmayaraq, qısa müddət içərisində regionda 529 çeşiddə, 863 milyon manat dəyərində sənaye məhsulu istehsalına nail olunması və ixracyönümlü məhsul istehsalına başlanılması sənayenin inkişafının yalnız paytaxt və ona yaxın ərazilərdə mümkün ola biləcəyi tezisinə tutarlı bir cavabdır. Naxçıvanda artıq sübut olunmuşdur ki, işgüzarlıq və təşkilatçılıq olan yerdə hər bir yerli xammaldan səmərəli istifadə etmək və onun əsasında sənaye müəssisəsi qurmaq mümkündür. Qarşıda isə daha geniş vəzifələr durur. Bölgənin təbii ehtiyatları, tranzit imkanları və işgüzar fəaliyyətin dəstəklənməsi burada daha geniş istehsalyönümlü layihələrin həyata keçirilməsi imkanları yaradır. Bu, “Sənaye ili”nə Naxçıvanın layiqli töhfələri ilə olacaqdır.

*“Sənaye ili”ndə muxtar respublikamızda görüləcək işlərin davamlı olaraq işıqlandırılmasına həsr olunmuş “Sənaye və regional inkişaf” rubrikasında ilk yazını təqdim etdik. Növbəti nömrələrdə mütəxəssislərlə birgə muxtar respublikamızın sənaye potensialı haqda silsilə yazılarla mövzunu davam etdirəcəyik.*

**Əli CABBAROV**

***Ümummilli lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizə daim yüksək vətəndaşlıq mövqeyindən yanaşmış, onların həqiqi elmi qiymətini vermişdir: "Milli ideologiyamızın əsas tərkib hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Qədim xalq sənəti – Keçəçilik

Milli dəyərlərimizdən olan, qədim xalq sənəti nümunələrindən sayılan misgərlik, dulusçuluq, qalayçılıq, xalçaçılıq, ipəkçilik, dəmirçilik kimi sənət sahələri Naxçıvanda geniş yayılmış və yüksək inkişaf səviyyəsinə çatmışdır. Xalqımızın qədim məişət mədəniyyətinə aid olan keçəçilik sənəti də qədim diyarımızda geniş yayılan sənətkarlıq sahələrindən biridir. Hörmə, tikmə, toxumadan fərqli olaraq, bu peşə basma üsulu ilə ixtisaslaşmış ustalar tərəfindən aparılırdı.



Keçədən Azərbaycanda ilk dəfə nə vaxtdan istifadə edilməsi haqqında dəqiq məlumat yoxdur. Keçəçilik sənətinin təşəkkül tapmasında heyvandarlığın rolunu xüsusilə qeyd etmək lazımdır. Araşdırmalar göstərir ki, qədim dövrlərdə soyuq havalarda insanlar isti olsun deyə, adi yun və ya yunlu dəridən istifadə etmişlər. Bir müddət sonra yunun bir-birinə yapışdığını görüb keçə əldə etməyi öyrənmişlər.

Mənbələrə əsaslanaraq qeyd edək ki, Midiyada yaşayan əhali başlarına uzun keçə papaq – "tiarı" qoyurdu. Ola bilsin ki, həmin dövrdə keçədən digər geyim dəstləri də hazırlanıbmış. Mingəçevir ərazisində aparılan arxeoloji qazıntılar zamanı e.ə. IV-III əsrlərə aid bir neçə tunc möhür tapılmışdır. Həmin möhürlərin üzərində olan insan rəsmlərindəki geyim nisbətən gödək keçə yapıncını xatırladır. Xüsusilə əlində çomaq, başında şiş papaq və gödək yapıncısı olan təsvir daha xarakterikdir.

Keçəçilik Azərbaycanda kustar sənətkarlığın mühüm bir sahəsinə çevrilmişdir. Bu sahə dağ və dağətəyi ərazilərdə daha çox inkişaf etmişdir. Bu da belə yerlərdə qoyunçuluğun əsas məşğuliyyət sahəsi olması ilə əlaqədardır. Azərbaycan xalqının məişətində keçədən istifadə geniş yer tutmuşdur. Keçə məmulatlarından müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Əhali keçədən döşənəcək, at, üçün tərlik, baş geyimi, yapıncı hazırlamış, daha çox alaçıqların üstünü örtmək üçün istifadə etmişdir. AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə yazır ki, lazım gələndə keçə türk döyüşçüsünün döyüş geyimi də olmuşdur.

Qədim xalq sənəti olan keçəçilik bütün türk dünyası üçün xarakterikdir. Altayda Pazırık kurqanlarında tapılmış keçə parçası buna sübutdur. 1947-1948-ci illərdə Rudenko tərəfindən aparılan arxeoloji qazıntılar zamanı e.ə. IV-III əsrlərə – Hun imperiyası dövrünə aid edilən keçə yəhər örtüyü aşkar edilmişdir. Bu tapıntı keçəçilik sənətinin qədimliyini və türk dünyasına məxsusluğunu bir daha sübut edir. Qazıntılar zamanı Hun kurqanlarından tapılmış keçədən hazırlanan uzunboğaz çəkmə və corablar, geyim nümunələri ondan məişətdə geniş istifadə olunduğunu göstərir. E.ə. V əsrə aid mənbələrdə qeyd edilir ki, saklar (türklər) keçədən tikilmiş ucu şiş papaqlar qoyardılar. Ucu şiş keçə papağı azərbaycanlılar "börk" adlandırırdılar. Keçədən məişətdə istifadə olunması haqqında "Kitabi-Dədə Qorqud" dastanında da məlumat var. Dastanda deyilir: "Kimin ki oğlu-qızı yox, qara otağa qondurın, qara keçə altına döşəyin, qara qoyun yəxnisindən önünə gətirin".

Müəyyən tarixi mərhələdə alaçıqların örtülməsi üçün keçədən istifadə edilmişdir. Araşdırmalar göstərir ki, yaylaqda yaşayış evlərinin hansı etnosa aid olması uzaqdan bəlli olurdu. Belə ki, türklərə məxsus alaçıqlar keçə ilə örtülürmüş. Bir məsələni də qeyd edək ki, yaylaqdakı çadırların nəinki hər hansı bir etnosa, hətta hansı tayfaya məxsusluğunu da çadırların formasından və rəngindən təyin etmək mümkün idi.

Naxçıvanda da sənətkarlığın bu növü geniş yayılmışdır. Regiondan topladığımız etnoqrafik çöl materiallarına görə, muxtar respublikanın bəzi kəndlərində keçəçi məhəllələri də mövcuddur ki, bu da qədim diyarımızda keçəçiliyin inkişafını göstərən amillərdəndir.

Keçəni salana "keçəçi", "həllac", həm də "atıcı" deyərlər. Keçə salmaq üçün güzəm yunundan, yəni quzu və ya payız yunundan istifadə edilirdi. Keçəçi ustaların söylədiyinə görə, yaz yunundan (saçaqlı) keçə salmaq olmaz. Ona görə ki, saçaqlı yun uzun olduğu üçün bitmir, yəni bir-birinə yapışmır. 7-8 qoyun yunundan (12-15 kiloqram yundan) bir keçə (yəni bir qəlib) hazırlanır. Alaçığın üstünü örtmək üçün bir neçə keçəni bir-birinə tikirdilər. Alaçığın baş hissəsini tutmaq üçün baş qəlibdən, yanlarını örtmək üçün yan qəlibdən, qabağını örtmək üçün isə qənşər qəlibdən istifadə edirdilər. Bu da alaçığın ölçüsündən asılı olaraq hazırlanırdı.

Keçə hazırlanarkən həllaclar çalışırdılar ki, xüsusən qara yundan istifadə etsinlər. Çünki qara keçə hava keçirmir, nəticədə, soyuq havalarda alaçıq isti, yayda isə sərin olurdu. Məişətdə keçədən döşəmə kimi də geniş istifadə edilmişdir. Naxçıvandan toplanan etnoqrafik materiallardan məlum olur ki, keçənin basılması prosesi aşağıdakı qaydada icra olunurdu: yunu diddikdən sonra onu ağ parçanın üstünə sərirdilər. Bundan sonra yun sərilmiş ağ parçanı hamarlanmış, yonulmuş, düz silindrik ağaca büküb hər iki tərəfindən bağlayırdılar. Bu ağacın adına "ox" deyirdilər. 5-6 nəfərin iştirakı ilə onu ayaqlayır, sonra ayaqları ilə vuravura fırladırdılar ki, yetişsin (hazırlansın). Salınmış yunun üzərinə hərdənbir ilıq su və ya yumurta sarısı səpirdilər ki, yun bir-birinə tez yapışsın. Yun bitişib tam keçə halına gələnə qədər bu iş davam etdirilirdi. Yunun yapışması üçün küncləri toxmaqla döyülürdü. Hazırlanan məhsul "qəlib" adlanırdı.

Keçəçiliklə bağlı müxtəlif deyimlər də mövcuddur:

*Atıcıyam, yayım var,*
*Çaxmağım var, qovum var.*
*Yunu yığın, gətirin,*
*Burda mənim ovum var.*

*Və ya*

*Həllacın var dişləri,*
*Qırılmaz kirişləri.*
*Vurun-vurun keçəni,*
*Tamam olsun işləri.*

Keçə hazırlanarkən yerinin hamarlığı, genişliyi və rahatlığı da nəzərə alınmalıdır.

Keçəçilik sənətində həllaclar qohum-qonşunun qüvvəsindən də istifadə edərdilər, çünki keçənin basılması prosesində xeyli adamın iştirak etməsi tələb olunurdu.

Həllaclar bəzən keçələrin ortasına naxış da salırdılar. Bunun üçün müəyyən rəngə boyadılmış ipi keçənin üzərinə qoyub toxmaqla döyərdilər. Belə olduqda ip keçənin üzərinə həkk olunurdu. Hazırlanmış keçələr içərisində isə ən qiymətlisi ağ rəngli yundan hazırlanmış keçələr hesab edilirdi. Bununla yanaşı, qırmızı, yaşıl, narıncı rənglərə boyanmış bəzəkli keçələr də hazırlanırdı.

Bir məsələni xüsusi qeyd etmək lazımdır ki, keçəçilik böyük gəlir gətirən sahə ola bilər. Xüsusən müasir dövrdə, turizmin inkişaf etdiyi bir vaxtda keçədən düzəldilmiş bəzəkli məişət əşyaları, baş geyimləri, gödəkçələr xarici qonaqların diqqətini daha çox cəlb etdiyindən keçəçiliyi gəlirli işə çevirmək mümkündür. Digər tərəfdən, hazırda Naxçıvanda qoyunçuluğun inkişafı bu sahənin və xalçaçılığın inkişafı üçün ciddi xammal bazasının olduğunu söyləməyə imkan verir.

*Son olaraq qeyd edək ki, qədim tarixə və xüsusi əhəmiyyətə malik keçəçilik sənəti xalqımızın məişəti və mədəniyyətində özünəməxsus rol oynayıb. Gərəkdir ki, belə xalq sənəti nümunələrimizi qoruyub saxlayaq və gələcək nəsillərə çatdıraq.*

**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru***

# Naxçıvan idmançısı dünya çempionu olub

***Naxçıvan Muxtar Respublikasında idmana göstərilən dövlət qayğısı öz bəhrəsini verməkdədir. Artıq idmanın bir çox sahələrində qazanılan uğurlar bunun bariz nümunəsidir. Son illər Naxçıvan Muxtar Respublikasında Şərq döyüşü sənətinə də maraq artmaqdadır. Buna səbəb muxtar respublikada fəaliyyət göstərən Şərq Döyüşü Sənəti Federasiyasının fəaliyyətinin məqsədyönlü təşkilidir.***

Ötən il federasiya tərəfindən Naxçıvana dəvət olunan və burdakı gənc idmançıların püxtələşməsində müstəsna rol oynayan Gündüz Qarayev ona göstərilən etimadı doğruldub. Hazırda federasiyanın nəzdində fəaliyyət göstərən MMA-1 idman növü üzrə istedadlı gənclərə dərs keçən G.Qarayev hələ peşəkar idmandan ayrı düşmədiyini sübut edib. O, bu yaxınlarda Ukraynanın Xarkov şəhərində keçirilən dünya çempionatında çıxış edib. Naxçıvan Muxtar Respublikasını bu turnirdə təmsil edən idmançı fəxri kürsünün ən yüksək zirvəsinə yüksəldib. Azərbaycan millisinin heyətinə məhz Naxçıvanın təmsilçisi kimi dəvət olunan Gündüz bizimlə söhbətində bu dəvətin onun üçün əlamətdar bir hadisə olduğunu vurğuladı: "Artıq bir ilə yaxındır ki, Naxçıvanda çalışıram və burda çox istedadlı gənc idmançılar var. Mən bu turnira yollanmazdan öncə yetirmələrimlə birlikdə Azərbaycan çempionatında iştirak etdik və uğurlu çıxışımızla hamıya Naxçıvanda bu idmanın peşəkar formada geniş vüsət aldığını göstərdik. Bu yarışın çətin olacağını bilirdim, buna görə ciddi hazırlaşmışdım. Əməyimin bəhrəsini də gördüm. İlk döyüşümü rusiyalı idmançıya qarşı keçirdim. Hansı ki həmin idmançı bir çox beynəlxalq turnirin qalibi olmuşdu. Qalib gəlib yarımfinala yüksəldim. Burda rəqibim rinqə çıxmaqdan imtina etdi və mən finala yüksəldim. Azərbaycan bayrağını dalğalandırmaq, eyni zamanda himnimizi səsləndirmək üçün qələbə qazanmalı idim. Əsas hədəfim Naxçıvana dünya çempionu kimi qayıtmaq olduğunu turnirə getməmişdən öncə də bildirmişdim. Finalda dağıstanlı idmançını məğlub edib qızıl medala layiq görüldüm".

Gənc məşqçi yetirmələrinin bu idmana olan marağından da danışdı. O, qarşıdakı illərdə Naxçıvanda yetişən və bu sahəyə meyil edən idmançıların dünya və Avropa çempionatlarında uğur qazanacağına inanır: "Məqsədimiz Naxçıvanda bu sahəyə olan marağı artırmaqdır. Hazırda məşqlərimizdə 100-ə yaxın gənc idmançı çıxış edir və onların içərisində artıq təcrübə qazanmış idmançılar var. İnanıram ki, qarşıdakı illərdə onlar dünya və Avropa çempionatlarında uğurla çıxış edəcəklər.

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyası bu yaxınlarda mötəbər bir turnir keçirməyi planlaşdırır. Keçiriləcək yarışla bağlı G.Qarayev bunları dedi: "Qarşıdakı günlərdə böyük bir turnir keçirməyi planlaşdırmışıq. İstəyirik ki, Naxçıvanda bu idman növünün geniş yayıldığını ölkənin idman ictimaiyyətinə təqdim edək. Bu yarışda Azərbaycanın bir çox bölgələrindən olan idmançılar iştirak edəcəklər. Belə turnirlərin tez-tez təşkili idmançıların yarış təcrübəsini artırar".

**✍ Ceyhun MƏMMƏDOV**

# Regional İnformasiya Mərkəzində bilik yarışı

Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzində saxlanılır. "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın qəbul edilməsində də əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüququnun təmin edilməsinə, onların cəmiyyətə inteqrasiyasına nail olmaqdır. Proqramda sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb edilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də qeyd olunan proqramın müvafiq müddəalarının icrasını həyata keçirir. Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması üçün bu kateqoriyadan olan 18 uşağın iştirakı ilə bilik və kinekt oyunları üzrə yarış təşkil edilib.

Sağlamlıq imkanları məhdud uşaqlar üç mərhələdə yarışıblar. İlk mərhələdə yarış iştirakçıları xüsusi kompüter proqramı əsasında hazırlanan 50 sualı cavablandırıb, digər mərhələdə isə kinekt oyunları üzrə qabiliyyət və bacarıqlarını nümayiş etdiriblər.

Hər mərhələnin qalibinə mükafat, yarışın digər iştirakçılarına isə həvəsləndirici hədiyyələr verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Kəngərli Rayon Mərkəzi Xəstəxanası

*2014-cü il üçün kotirovka elan edir*

***1.Ərzaq məhsullarının satın alınması***
***2.Dərman preparatlarının satın alınması***

Kotirovka 3 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi, maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 4 fevral 2014-cü il tarixdə saat $11^{00}$-də Kəngərli Rayon Mərkəzi Xəstəxanasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs:Hüseyn İbrahimov***
***Telefon: 548-15-24***
***Ünvan: Kəngərli rayonunun Qıvraq qəsəbəsi***

***İtmişdir***

Şərur rayonunun Mahmudkənd sakini İmanov Yusif Möhsün oğlunun adına verilmiş JN-$84^A$ və JN-$84^B$ inventar nömrəli, 10204028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

## *Allah rəhmət eləsin*

Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru Surə Seyid və Tədris şöbəsinin əməkdaşları Tədris şöbəsinin müdiri Rafiq Rəhimova, əmisi
**HİDAYƏTİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin direktoru Vüqar Rəsulov və mərkəzin kollektivi Azər Seyidova, anası
**SABİRƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi iş yoldaşları Azər Seyidova, anası
**SABİRƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Rabitə İdarəsinin kollektivi iş yoldaşları Azər Seyidova, anası
**SABİRƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin rəisi Rəşad Həsənov və mərkəzin kollektivi iş yoldaşları Azər Seyidova, anası
**SABİRƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının kollektivi iş yoldaşları Əhməd Qarayevə, əzizi
**SABİRƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 121**